Ədəbiyyat QƏZETİ
18 yanvar 2002-ci il
№ 3 (3284)
1934-cü ildən çıxır
ادبيات قزتی

# BƏXTİYAR VAHABZADƏ RUMINİYA MEDALINA LAYİQ GÖRÜLDÜ


ROMÂNIA
PREŞEDINTELE
DECRET

Ölkəmiz dövlət müstəqilliyini bərpa edəndən sonra dünya ilə birbaşa əlaqələrimiz yeniləşir, get-gedə möhkəmlənir. İkitərəfli münasibətlərin yeni mərhələsində Azərbaycanın dəyərli vətəndaşları bir çox mötəbər beynəlxalq mükafatlara, xarici ölkələrin orden və medallarına layiq görülürlər.

Dünya xalqlarının indiyə qədər yaratdıqları söz sənəti nümunələrindən seçmələrini dilimizə çevirmiş, eyni zamanda Şərq və Avropa ölkələrinin ədəbiyyatlarını respublikamızda təbliğ etmiş xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığına diqqət yetirən əcnəbi ədəbiyyatçılar da öz növbəsində görkəmli sənətkarın əsərlərini xarici dillərə çevirmiş, dünyanın bir çox ölkələrində kitablarını nəşr etmişlər.

Bu yaxınlarda Ruminiya Respublikasının prezidenti cənab İon İliesku Bəxtiyar Vahabzadənin komandor dərəcəli "Xidmətlərinə görə" ordeni ilə təltif olunması barədə fərman imzalamışdır. Milli, ümumbəşəri mədəni dəyərlərin qorunmasındakı zəhmətinə, Ruminiya və Azərbaycan respublikaları arasındakı dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə, həmçinin rumın mədəniyyətini, xüsusən də dost ölkənin ədəbiyyatını ölkəmizdə tanıdıb təbliğində göstərdiyi xidmətlərinə görə Bəxtiyar müəllim bu medala layiq görülmüşdür.

Oxucularımızın nəzərinə onu da çatdıraq ki, "Ədəbiyyat qəzeti"nin 2000-ci ilin 10 noyabr tarixli sayında Bəxtiyar müəllimin böyük rumın şairi Mixay Emineskunun həyat və yaradıcılığı haqqında "hər kəs öz dövrünün övladıdır" məqaləsi, həmçinin onun tərcüməsində "İllər ötdü...", "Mən gizli sevirdim" şerləri verilmişdi.

Yeri gəlmişkən, şairin rumın dilinə çevrilmiş şerlərindən ibarət "İnsan və Kainat" adlı kitabı ötən il Ruminiyada nəşr edilmişdir.

*A.Əhmədoğlu*